# Aşıq Ələsgər irsinə ehtiram




**Rəşid Behbudov adına Mahnı Teatrında folklorşünas alim, Aşıq Ələsgər irsinin yorulmaz tədqiqatçısı İslam Ələsgərin 100 illik yubileyi münasibətilə "Dədə Ələsgər Ocağı" İctimai Birliyinin təşkilatçılığı ilə yubiley gecəsi keçirilib.**



Mərasimdə tanınmış elm və mədəniyyət xadimləri filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev, Milli Məclisin deputatı, akademik Rafael Hüseynov, filologiya elmləri doktoru, professor Muxtar İmanov, "Dədə Ələsgər Ocağı" İctimai Birliyinin sədri Xətai Ələsgərli, tibb üzrə fəlsəfə doktoru Hacı Abbas Bağırov və tədqiqatçı Hacı Loğman Babacanlı, "İrəvan" xalq çalğı alətləri ansamblının bədii rəhbəri Maya Qafarova çıxış edərək İslam Ələsgərin Aşıq Ələsgər irsinin toplanması, nəşri və elmi əsaslarla öyrənilməsindəki rolundan danışıblar.

Azərbaycan musiqisinin və aşıq sənətinin görkəmli nümayəndələrinin çıxışları gecəyə xüsusi rəng qatıb. Tədbir çərçivəsində Aşıq Ələsgər irsinin tədqiqi və təbliği sahəsində xidmətləri olan bir sıra şəxs "Aşıq Ələsgər – 200" yubiley medalı ilə təltif olunub. Həmçinin tədbirin bədii hissəsinin təşkilinə rəhbərlik edən, "İrəvan" xalq çalğı alətləri ansamblının bədii rəhbəri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Maya Qafarovaya Fəxri diplom təqdim edilib.

Yubiley gecəsində İslam Ələsgərdən bəhs edən videoçarx izlənilib.

***XQ***

Xalq qəzeti.- 2025.- 24 iyun (№ 128).- S.14.